ULUSLARARASI TÜRK LEHÇE ARAŞTIRMALARI DERGİSİ (TÜRKLAD), 4. CİLT, 2. SAYI, 2020, 375-382. s., TÜRKİYE

# "QİYMƏTLƏNDİRMƏ" KONSEPTİNƏ SOSİAL-LİNQİVİSTİK BAXIŞ

*Sənəm FƏRƏCOVA**


## Xülasə

Konsept koqnitiv dilçiliyin əsas sahələrindən, dilçiliyin isə müasir, yeni istiqamətlərindən biridir. Konsept nə qədər dildə milli səciyyə daşıyırsa, o qədər də universaldır. Konsept mədəniyyətin mərkəzi, bədii yaradıcılığın əsası, dilin ifadəliliyi, şüurun güzgüsüdür. Qiymətləndirici sözlər konsept daxilində ideyanı təcəssüm etdirən ifadəli, məcazi və mücərrəd mənalı anlamlardır. Qiymətləndirici mənalar, sözlər, leksemalar "Qiymətləndirmə" konseptinin daxilində cəmlənmişdir. "Qiymətləndirmə" konsepti qiymətləndirici xüsusiyyətə malikdir. Bu konseptə vahid istiqamət kimi baxmaq olmaz. Bu bir konseptin əhatə dairəsi deyil, ümumilikdə konseptlərin dil səviyyəsində məcmusudur ."Qiymətləndirmə" konseptinin quruluşu, strukturu barədə fərqli fikirlər mövcuddur. Ancaq onun təyin edilməsi üçün vahid bir forma yoxdur. Biz bu məqalədə müxtəlif konseptlər daxilində qiymətləndirici anlamları fərqli səviyyələrdə və istiqamətlərdə araşdırma aparmaqla aşkar edirik. Bu tədqiqatda alimlərin fikirləri böyük rol oynayır. Tədqiqatlar göstərir ki, bütün qiymətləndirici anlamlar, leksemlər "Qiymətləndirmə" konseptinə daxildir və digər konseptlər üçün baza rolunu oynayır. Qiymətləndirici anlamların strukturu tədqiq olunan zaman nəzərə alınan başlıca amil həmin sözlərin məxsus olduğu və istifadə olunduğu ərazidə yaşayan insanların, etnosların, millətlərin stereotipləri , milli, mədəni gerçəklikləri və duyğularıdır. Hər bir cəmiyyətin xarakteri və hadisələrə yanaşma tərzi "Qiymətləndirmə" konseptinin quruluşunu, strukturunu formalaşdıran vacib bir elementdir. Hər bir xalqın dünyagörüşü onun mədəni və əxlaqi dəyərlərin cəmidir. Məqalədə məqsəd dünyagörüşün şüurda yaratdığı mənzərə zamanı ortaya çıxan dil qaydalarını tədqiq etmək, səviyyələr üzrə qruplaşdırmaqdır və sosial mühitə təsirini araşdırmaqdır.


**Açar Sözlər:** Konsept, Qiymətləndirmə Konsepti, Dil, Şüur

# "DEĞERLENDİRME" KONSEPTİNE SOSYAL LENGÜİSTİK YAKLAŞIM


## Özet

Konsept kognitif (bilişsel) dilciliğin önemli alanlarından, genel dilciliğinse çağdaş, yeni akımlardan biridir. Konsept dilde ulusal karakterde olduğu için aynı zamanda üniversaldır. Konsept kültürün merkezi, bedii yaratıcılığın özülü, dilin ifadeliliği, bilincin aynasıdır. Değerlendirici kelimeler konsept içerisinde ideanı yansıtan ifadeli, mecazî ve soyut anlamlı kavramlardır. Değerlendirici kavramlar, sözler, leksemalar, "değerlendirme" konseptinin dahilinde yoğunlaşmıştır. "Değerlendirme" konsepti değerlendirme özelliği taşımaktadır. Bu konsept tek bir yön olarak görülmemelidir. Bu bir konseptin kapsamı değil, dil düzeyindeki konseptlerin toplamıdır. "Değerlendirme" konseptinin yapısı hakkında farklı görüşler vardır. Ancak onun belirlenmesi için tek bir biçim yoktur. Biz çalışmamızda ayrı ayrı konseptler dahilinde değerlendirme anlamlarını farklı düzeylerde ve yönlerde araştırma yapmakla ortaya çıkarıyoruz. Bu araştırmada bilim adamlarının görüşleri önemli rol oynamaktadır. Araştırmacıların kanaatince tüm değerlendirme anlamları, leksemler "Değerlendirme" konseptine dahildir ve diğer konseptler için temel rol oynamaktadır. Değerlendirici anlamların yapısı tetkik olunan zaman dikkate alınması gereken başlıca faktör bu kelimlerin ait olduğu ve kullanıldığı bölgede yaşayan insanların, etnosların, milletlerin stereotip, ulusal, kültürel


* Bakı Dövlət Universitetinin Azərbaycan dili ixtisası üzrə doktorantı. El-mek: sanamfarajova@bsu.edu.az

ORCİD ID: https://orcid.org/0000-0002-1465-1598

gerçeklikleri ve duygularıdır. Her bir toplumun karakteri ve olaylara yaklaşım tarzı "Değerlendirme" konseptinin yapısını oluşturan önemli bir unsurdur. Her bir halkın dünya görüşü onun kültürel ve ahlaki değerlerinin göstergesidir. Makalenin amacı dünya görüşün bilinçte oluşturduğu manzara zamanı ortaya çıkan dil kurallarını incelemek, düzeyler çerçevesinde sınıflandırmak ve sosyal ortamdaki etkisini araştırmaktır.

**Anahtar Kelimeler**: Konsept, Değerlendirme Konsepti, Dil, Bilinç.

## THE SOCIAL-LINGUISTIC VIEW TO THE EVALUATION CONSEPT

### Abstract

The concept is one of the main areas of the cognitive linguistics and one of the modern, new directions of the linguistics. How the consept has a national characteristic in the language, it is so universal. The concept is the center of the culture, the basis of artistic creativity, the expressiveness of the language, the mirror of the consciousness. Evaluative words are expressive, figurative and abstract meanings words that embody the idea in the concept. Evaluative meanings, words, lexemes are concentrated within "Evaluation" concept. "Evaluation" concept has an evaluative character. This concept should not be seen as a single direction. This is not the scope of one concept, in general it is the sum of the concepts at the language level. There are different views about the structure and system of the "Evaluation" concept. But there is not single form for its appointment. In this article we explore evaluative meanings in different concepts by researching them at different levels and in different directions. The views of scientists play a major role in this researches. Researches show that all evaluative meanings and lexemes are included in the "Evaluation" concept, and play a basis role for other concepts. The main factor to be considered when studying the structure of evaluative meanings is the stereotypes, national and cultural realities and feelings of the people, ethnic groups and nations living in the area where these words belong and are used. The character of the each society and its approach to events is an important element that forms the structure, the system of "Evaluation" concept. The outlook of the each nation is the sum of its cultural and moral values. The aim of the article is to study the rules of language during when outlook is creating wiev in the mind and to group by levels, to investigate the impact on the social environment.

**Key Words:** Concept, Evaluation Concept, Language, Consciousness

Dil imkanlarının genişliyi, zənginliyi cəmiyyətin inkişaf səviyyəsindən aslıdır. Təbii ki, bu dil imkanları bir xətt üzrə inkişaf etmir. Dil, mədəniyyət, dəyər, şəxsiyyət toplumun əsas anlamlarıdır. Hər bir xalqın dünyagörüşü onun mədəni və əxlaqi dəyərlərin cəmidir. Dünyagörüşün şüurda yaratdığı mənzərə konsept adlanır.

Araşdırmamızda "Qiymətləndirmə" konseptinin izahını verməkdən əvvəl "konsept nədir?" sualına cavab tapmaq lazımdır. Konsept dilçiliyin müasir, yeni istiqamətlərindən biri olan koqnitiv dilçiliyin əsas öyrənilmə sahəsidir. Koqnitiv dilçilikdə konseptə dünyanı dərk etməyin öyrənilməsi prizmasından baxılır və cəmiyyətin dünya dil mənzərəsindəki vəziyyətini araşdırır. Koqnitiv dilçilikdə konseptin təbiətinin öyrənilməsi əsas istiqamətdir.

Anlam, məna, konsept terminlərinə müəyyən dövrlərdə alimlər müxtəlif istiqamətlərdə yanaşmışlar. Azərbaycan dilçiliyində bu üç termin ya sinonim, ya da tam fərqli istiqamətlər kimi qəbul edilmişdir. Dünya dilçiliyində də belə yanaşmalar mövcuddur. Nəzərə almaq lazımdır ki, anlam hər bir anlayışın özünəməxsus özəlliyidir. Anlam ifadə tərzi deyil, sadəcə obyektlərin və hadisələrin qavranılmasıdır. Anlayışın məzmunu isə onun haqqında verilən ümümi məlumatdır. Lakin konsept qavranılan ümumi məlumatın şüurda mənzərəsidir. Rus dilçisi Y.S.Stepanov anlama məntiq və fəlsəfənin, konseptə isə riyaziyyat və məntiqin termini

kimi yanaşmışdır. Konsept öz struktur daxilində anlamdan ibarətdir. Onun fikrincə, əsas var olmaqdır . Var olduqdan sonra hansı mənalar konseptdə cəmləşəcək artıq o yanaşmadan asılıdır.

Hər bir anlam dilin leksik kateqoriyasının tərkib hissəsidir. Konsept daxilində isə anlam dilin dəyər və obrazlılıq səviyyəsində göstəricisidir. Konseptin semantik quruluşu dilin dəyərli, mental, ifadəli, illüstrativ , ekspressiv formalarının ifadə etdiyi bütün informasiyaları özündə əks etdirir. Konsepsiya baxımından ən əhəmiyyətlisi spesifikliyi təyin edən sözdə mədəni-etnik komponentdir. Dil vahidlərinin semantikasında və dünyanın linqvistik mənzərəsinin əks etdirilməsində bu amil çox əhəmiyyətlidir.

Konsept dünyanı tanıma prosesini, insan fəaliyyətinin, təcrübəsinin nəticələrini, dünyanı dərk etməyini əks etdirən çoxölçülü bir quruluşdur. Konsepti anlamdan fərqləndirən əsas xüsusiyyət də budur. Konsept təkcə təsəvvür olunmur, həm də yaşanılır. Ona görə də onun şüurda ifadə tərzinin əhatə dairəsi daha genişdir və şüurun əsas, bölünməz vahididir. Həyatı və fəaliyyəti insan şürunda əks etdirən ondan böyük vahid yoxdur. Konsept həm linqvokultrologiyanın, həm də koqnitiv dilçiliyin mərkəz nöqtəsi kimi qəbul edilir. Bunun əsas səbəbi dil vahidlərinin öz leksik anlamından daha geniş əhatə dairəsinə malik olub, leksik-semantik quruluşun dəyər qazanmasıdır.

Konsept dünyanı dərk etməyin əsas formuludur. "İnsanın bütün idrak fəaliyyətini dünyaya istiqamətləndirmənin inkişafı kimi qəbul etmək olar; bu fəaliyyətdə insan uşaqlıqdan başlayaraq yaşlanana qədər dünyadakı obyektləri bir-biri ilə müqayisə edir, eyniləşdirir, fərqləndirir, onlar arasındakı oxşar və fərqli cəhətləri , əlamətləri aydınlaşdırır. Bir sözlə, insan bütün ömrü boyu dünyanı, onu əhatə edən maddi və mənəvi aləmi öyrənir. Konseptlər də bu cinsdən olan əməliyyatları, prosesləri təmin eləmək üçün yaranır, təzahür edir" [Dilçilikdə yeni istiqamətlər, 2019, 39].

Dil ona təsir edən amillərdən asılıdır. Dil ona təsir vasitələri nəticəsində ya formalaşır, ya parçalanır, ya da varlığına son qoyulur. Konsept özündə dilin var olan, yaşayan, canlı amillərini cəmləyir və bəşər övladının düşünən beynində dilin qavranılan inikasını əks etdirir. Bu sahə çətin olmağı ilə bərabər dünyagörüşü və mədəniyyətdən asılıdır. Dünyagörüşü bir çox elmlərin mərkəz nöqtəsini təşkil edir. Məhz onun sayəsində elm və texnologiya inkişaf edir. Konsept isə cəmiyyətin elmi dünyagörüşü deyil, toplumun düşünən bədii təfəkkürünün şüurda yaratdığı obrazlılıqdır. Konseptdə nə bədii yaradıcılığın, nə incəsənətin, nə də bədii ədəbiyyatın inkişaf yolu öyrənilir. Konsept bütün bunların cəmiyyət, yaxud fərdin ya milli, ya da universal səviyyədə başa düşülmə tərzi və onun şüurda qoyduğu izdir. S.A.Askoldov yazır ki, hal-hazırda konseptlərin təbiəti problemi başqa bir sahədə, yəni söz sənətinin nəzəri öyrənilməsindən mürəkkəbdir. "Konsept anlamdan fərqli olaraq insan şüurunun daha geniş fikir konstruksiyasıdır" (Ангелова, 2004, Выпуск 3, c.)

Hər bir xalqın dili, nitq prossesi, kommunikativ əlaqələri, dilin bədii yaradıcılığı, dünyagörüşü, mədəniyyəti və hadisələrə yanaşma tərzi müxtəlifyönümlü olduğu üçün cəmiyyətin fərdinin şüuru da differantiv xüsusiyyətə malikdir. Bunun nəticəsində konseptlərin dərk olunması ya dil, ya dilçilik, ya da sadəcə yaşam çərçivəsi daxilində baş verir. "Konseptə aid bütün təriflərin ortaq cəhəti odur ki, onların hər biri konsepti düşüncə vahidi kimi görür. Koqnitiv dilçiliyin bəzi nümayəndələri konsepti məna ilə eyniləşdirirlər. Bununla yanaşı, digər fikirlər də var: konsept sözlər və qeyri-linqvistik reallıq arasında vasitəçidir, buna görə də, sözün mənası konseptlə eyniləşdirilə bilməz. Konsept anlayışdan özünün linqvokulturoloji xüsusiyyəti ilə fərqlənir. Konseptin məzmununun təsviri eyni zamanda milli dilin dünyagörüşünün təsviridir. Dilin dünyagörüşü dedikdə, milli dəyərlərdən asılı olan hadisə, proseslər, millətin həyat tərzi, mədəniyyəti, xarakterik xüsusiyyətləri nəzərdə tutulur. Bir dilin dünya görünüşü milli adlanır, çünki elmi dünyagörüşündən fərqlənir" (Şükürlü, 2019, 127).

Bildiyimiz kimi, konsept təkcə söz yığını deyil. Müəyyən obyektin konseptin vahidi olmağı üçün mütləq həmin dildə istifadə olunan anlamlar, leksemlər, sözlər, söz birləşmələri,

cümlələrin konseptə məxsus əlamətlərdən ibarət olmalıdır. Ən vacib əlamətlərdən biri qiymətləndirmə xüsusiyyətidir. Konsept leksemlər, anlamlar tərəfindən qiymətləndirilir. Dilin, qazanılmış bilik və təcrübələrin şüurda müəyyən mənzərənin (konseptin) yaranmasında xidməti olan anlamlar, leksemlər və s. qiymətləndirici sözlər adlanır. Qiymətləndirici sözlər konsept daxilində ideyanı özündə cəmləşdirən ifadəli, obrazlı və bəzən də mücərrəd anlamlardır. Qiymətləndirici anlamlar insanın yaddaşında hadisələrin düşünülərək qavranılması nəticəsində buraxdığı izdir. Onun dəyəri isə gerçəklikdir. Bu gerçəkliyin qavram içərisindəki ana xətti isə konseptdir. Konseptin mahiyyətini aşağıdakı sxemdə aydın görmək olar:

Cədvəl: 1




Qiymətləndirici anlamlar, sözlər, leksemlər "Qiymətləndirmə" konsepti daxilində cəmləşir. Bir növ koqnitiv dilçiliyin sahəsi olan konsept üçün baza rolunu oynayır. Bəzən məqalələrdə və elmi araşdırmalarda "Qiymətləndirmə" konseptinə superkonsept şəklində də müraciət edirlər. "Qiymətləndirmə" konsepti bütün konseptlərin önündə dayanır. Digər konseptlərə lazım olan ifadə vasitələri burdan qaynaqlanır. "Qiymətləndirmə " konsepti şüurda biliklərin məcmusu, kommunikativ informasiyanın mənzərəsi, oxucuya və ya dinləyiciyə çatdırılan motivdir.

Ətrafımızda olan məfhum və anlayışların ifadə etdikləri semantik imkanlar ümumilik, konkretlilik bildirib obyektin xarici anlamıdırsa, qiymətləndirici sözlər isə obyektin daxili, fikri adıdır. "Qiymətləndirmə" konsepti düşüncə və inancımızın təməli, bilik, bacarıq və təcrübəmizin ifadəsi, milli dəyər və mədəniyyətimizin göstəricisidir. O, qavram, idrak və şüurun bütün aspektlərində, istiqamətlərində mühüm rol oynayır. "Qiymətləndirmə" konsepti təcrübə zamanı dərk edilən, informasiya nəticəsində qavranılan, obrazlılıq, ifadəlilik, mücərrədlik, ümumiləşmə, dəyərlilik, mentallıq xüsusiyyətlərinə malik qiymətləndirici sözlər (anlamlar, leksemlər) toplusudur. Bu insan idrakının tərkib hissəsidir.

"Qiymətləndirmə" konseptinin elm sahəsində araşdırılması dar çərçivədə aparılmışdır. Bunun səbəbini konsepti koqnitiv dilçiliyin cavan sahəsi olmağı ilə izah etmək olar. "Elmi ədəbiyyatın təhlili göstərir ki, struktur dilçiliyi qiymətləndirmənin öyrənilməsini, əsasən, onun ümumi funksional-semantik xüsusiyyətlərinin nəzərə alınması və qiymətləndirmə strukturunun ayrı-ayrı komponentlərinin araşdırılması ilə məhdudlaşdırmışdır" (Солодилова, 2013, № 4 (037), c. 25)

Dilçilik sahəsindəki araşdırmalarda nəinki "Qiymətləndirmə" konseptinin heç konseptin elm sahəsi kimi vahid strukturu müəyyənləşdirilməmişdir. Bizim bu mövzuya yanaşma tərzimiz aparılan araşdırmalardan, tədqiqatlardan, deyilən fikirlərdən formalaşmış və dilimizin strukturuna uyğunlaşdırılmışdır. "Konseptin vacib nüansı kimi vurğunun qiymətləndirici element kimi xarakterik bir xüsusiyyəti mövcuddur ki, bu mental şifahi biliklərinin həm fərdi, həm də kollektiv şüur üçün əhəmiyyətinin aktuallaşmasıdır. Ancaq fikirləşirlər ki, konseptin dəqiq strukturu yoxdur, sözlərinin dəqiq ardıcıllığı yoxdur, nisbi mövqeyi, eləcə də tərkibi fərdidir və konseptin formalaşması və fəaliyyət göstərməsi hər bir şəxsin şərtlərindən asılıdır. Bu baxımdan, konseptual analizin nəticəsi ciddi simulyasiya edilmiş

bir quruluş şəklində deyil, konseptual xüsusiyyətlərin siyahısı kimi təqdim edilə bilər" (https://www.gramota.net/articles/issn_1993-5552_2007_3-1_103.pdf)

Qiymətləndirmənin strukturu və onu təşkil edən anlamların hansı istiqamətlər üzrə qruplaşdığı və malik olduqları obrazlılıq səviyyəsi, şüurda yaratdığı mənzərə, demək olar ki, araşdırılmamışdır. Qiymətləndirmə vahidlərinə sadəcə düşünülərək qavranılıb, şüurda öz əksini tapan anlamlar kimi yanaşılmışdır. Qiymətləndirmə vahidləri dil obyektindəki səviyyələrin təsnifləşdirilməsini əks etdirən, leksik quruluşa əks gedən, dilin ontoloji modelini ortaya qoyan və kommunikativ funksiyasını təmin edən qrammatik dil kateqoriyasına aiddir.

"Qiymətləndirmə" konsepti qiymətləndirici xüsusiyyətə malikdir. Bu konseptə vahid istiqamət kimi baxmaq olmaz. Bu bir konseptin əhatə dairəsi deyil, ümumilikdə konseptlərin dil səviyyəsində məcmusudur. Onu əhatə edən qiymətləndirmə vahidləri milli-etnik dəyərləri şüurda təcəssüm etdirir. "Qiymətləndirmə" konsepti ayrı-ayrı konseptləri qiymətləndirən anlamların cəmindən ibarətdir. Bildiyimiz kimi hər bir konseptin insan şüurunda təcəssüm etməsi üçün obrazlılıq, ifadəlilik, dəyər qazanmış mental anlamlar olmalıdır. Konsepti təşkil edən belə anlamlar qiymətləndirmə vahididir. Bu tip qiymətləndirmə vahidləri "Qiymətləndirmə" konseptinin əsasını təşkil edir. Qiymətləndirmə vahidi ümumi səciyyə daşıyır və tərkibinə anlamlar, leksemler daxildir.

"Qiymətləndirmə" konseptinə daxil olan anlayışların vahid bölünmüş səviyyələri olmur. Bu ümumi vahid kimi hamı tərəfindən qəbul olunan bir struktur deyil. Qiymətləndirən anlamlar dünyaya münasibətimizin, həyat təcrübəmizin mənzərəsini təşkil edən şəxsi mənaları ifadə edir və fərdi xüsusiyyət daşıyır. "Qiymətləndirmə" konseptində cəmləşən anlamlar mental dəyərlərə malik olur və şəxsiyyətin inkişafından aslı olaraq səciyyələndirilir. "Bilik reallığın subyektiv konseptualizasiyasının nəticəsidir, konseptualizasiya və təsnifləşdirmə prosesləri mövcud mədəniyyətə məxsus dəyərlər və normalar əsasında həyata keçirilir. Beləliklə, təsnifat və konseptualizasiya prosesləri avtomatik olaraq qiymətləndirmə nöqtələrini özündə cəmləşdirir" (Солодилова, 2013, № 4 (037), c. 26).

"Qiymətləndirmə" konseptini təşkil vahidlərə müxtəlif yanaşmalar mövcuddur. Bu yanaşmalara münasibət zamanı ilk öncə vahidin malik olduğu motiv önəmlidir. Motiv olmadan onu vahid kimi qəbul etmək çətindir. Çünki şüurda obrazlılıq və dəyər qazanmış qiymətləndirici anlamlar motivlər əsasında sistemləşir.

Leksik vahidlərin dilin lüğət tərkibindəki vəziyyəti sabitdir. Lakin "Qiymətləndirmə" konseptində leksik vahidlərin yeri konteksdən, vəziyyətdən, situasiyadan və ifadəlilikdən aslıdır. Leksik vahidlərin lüğətdəki mənaları qiymətləndirirci sözlərin ifadəliliyini və bütün biliklərini özündə əhatə edə bilmir. Danışanın nitqi zamanı leksemlər ifadəlilik, obrazlılıq, dəyər, emosionallıq qazanaraq qiymətləndirmə obyektinə çevrilir. Deməli, burda təcrübənin də rolu danılmazdır.

Ümumiyyətlə, "Qiymətləndirmə" konseptinin quruluşu və strukturu haqqında müxtəlif istiqamətlərdə fikirlər mövcud olsa da, onun təyin edilməsi üçün vahid forma yoxdur. Biz onu müxtəlif səviyyələr və istiqamətlər üzrə araşdırma apararaq üzə çıxarırıq. Bu zaman qiymətləndirmə vahidləri üç müxtəlif struktur üzrə bölünür. Bunlar aşağıdakılardır:

1. ***Leksem Strukturu***. Leksemin semantikası ilə konseptin adının semantikasının eyni olması, məsələn: "ev" leksemi "Ev" konseptinin əsas qiymətləndirici anlamıdır. Leksem olduğu kimi öz məna yükünü həmin konsept daxilində qoruyur. Leksem strukturuna malik olan leksemlər qrammatik baxımından obyektin adını bildirirlər. Bunu aşağıdakı sxemdə aydın görmək olar:

Cədvəl: 2

| Leksem | Konseptin adı |
|---|---|
| Dost | "Dost" konsepti |
| Zaman | "Zaman" konsepti |
| İnsan | "İnsan" konsepti |
| Sevgi | "Sevgi" konsepti |
| Gül | "Gül" konsepti |
| Vətən | "Vətən" konsepti |

2. ***Sadə Struktur***. Qiymətləndirmə vahidlərinin primitiv struktura malik olub hamı tərəfindən dərk olunmasıdır, məsələn: *qırmızı kərpic*. "Qırmızı" sözü kərpic sözünü qiymətləndirir və oxucuya onun növü, funksiyası, istifadəsi, materialı haqqında məlumat ötürür. *Qızıl payız*. "Qızıl" sözü öz həqiqi semantikasından uzaqlaşaraq payız sözünü qiymətləndirir. Qiymətləndirmə prossesi zamanı şüurumuzda payızı qızıl payız kimi canlandırırıq. Bunun səbəbi payız fəslində yarpaqların saralıq tökülməsi, onların rənginin sarı, yəni qızılı rəng almasıdır. Digər nümunəyə diqqət edək:

Dərələr, dağlar, ağaclar *yaşıl, əlvan* hər yan (C.Cabbarlı). "Yaşıl", "əlvan" sözləri bu misrada baharın gözəlliyini, onun gəlişi ilə hər tərəfin rəngarəng olduğunu qiymətləndirir. Məhz bu sözlərin ifadəliliyi şüurumuzda baharın rəng çalarlarını canlandırır. Bu leksemlər bahar fəslinin qiymətləndirici vahidləridir.

Adətən, bu struktura malik anlamlar qrammatik cəhətdən obyektin əlamətini bildirirlər. Ad bildirən anlamlara da rast gəlmək mümkündür. Sadə struktura malik olan leksemlər qiymətləndirmə vahidi kimi öz həqiqi semantikasını qorusa da, qiymətləndirdiyi obyektə görə fərqlənir. Qavranılma zamanı şüurdakı mənzərəsi təyinedici funksiyaya malik olur.

3. ***Mürəkkəb Struktur***. Müxtəlif semantikalara malik olan leksemlərin obrazlılıq, dəyər, mədəniyyət, mücərrədlilik, ifadəlilik əsasında formalaşaraq eyni konseptin insan şüurunda mənzərəsinin yaranmasına xidmət edir: məsələn, "Dost" konseptini "dost", "yaxın", "yoldaş", "qardaş" , "düşmən" , "vətəndaş", "əməkdaş", "rəfiqə" leksemləri qiymətləndirir. Digər bir nəzm nümunəsinə diqqət yetirək: *Qara*, indi, geyər cahan necə ki, Geyinib bir ana, tutur matəm (C.Cabbarlı). Bu parçada "Qara" leksemi öz həqiqi məna hüdudlarını aşaraq obrazlılıq, ifadəlilik baxımından mürəkkəb struktura malikdir. "Qara"anlamı leksem və sadə strukturdan mürəkkəb struktur səviyyəsinə yüksəlib qiymətləndirmə vahidinə çevrilir. "Qara" rəng semantikasından uzaqlaşaraq "Rəng" konsepti çərçivəsində matəmi, yası, qəmi, kədəri, dərdi, hüznü, acını qiymətləndirir.

Bu struktur bədii yaradıcılığın, incəsənətin əsas sütunudur. Mürəkkəb strukturun formalaşması və onu təşkil edən anlam və leksemlərin xüsusiyyətləri araşdırılmalıdır.

Qiymətləndirmə konsepti dil və mədəniyyət arasında əlaqədir. Qiymətləndirilən anlam dil vasitəsilə mənimsənilir, təcrübəyə əsaslanıb mədəniyyət fonunda qavranılır. Nəticədə, şüurda qiymətləndirdiyi konseptin bütün mənzərəsini əks etdirir. "Qiymətləndirmə" konseptinin şüurda qavranılması müxtəlif səviyyələr üzrə aparıla bilər. Bu səviyyələr aşağıdakılardır:

1. ***Obrazlılıq Səviyyəsi***. Bu səviyyə, adətən, mürəkkəb struktur daxilində daha aydın müşahidə olunur. Konsept daxilində atributun semantik quruluşunda qiymətləndirici element praqmatik parametrlərdən asılı olaraq tipik, sabit və ya dəyişkən ola bilər. Atributu ifadə edən qiymətləndirmə vahidi konseptin ifadə imkanından və şüurdakı mənzərənin genişliyindən asılıdır. "Qiymətləndirmə" konseptinin obrazlılıq səviyyəsi qiymətləndirmə obyektləri haqqında stereotipik biliklərlə müəyyən edilir. Məsələn,

Cəfər, həmişə hikməti-xilqət nihan olur

*Zatın* zəkavü əqlə mübərra bilənlərə (C.Cabbarlı).

Nəzm parçasında "zat" sözü "Ailə" konseptinin qiymətləndirici anlamı kimi "Qiymətləndirmə" konseptinin vahididir. "Zat" anlamının nitq prossesi zamanı qavranılması və şüurda inikası mürəkkəb struktur əsasında formalaşır. "Zat" qiymətləndirici anlamın şüurda bədii mənzərəsini nəsil, kök, soy, ocaq, ailə anlamları ilə sinonimik cərgə kimi təsəvvür etmək olar. Hər şeydən ali, uca olan və var olma mənalarını ifadə edir.

2. ***Əlamət Səviyyəsi***. Konsept obyektin görüntüsünün şüurda yaratdığı əlamətlərdən ibarətdir. Bir qayda olaraq, qiymətləndirmə komponentinin sabitliyi ilə xarakterizə olunur. "Qiymətləndirmə" konseptinin əlamət səviyyəsi qiymətləndirmə obyektlərinin malik olduqları əlamətlər mədəni və fərdi şəkildə müəyyənləşdirilir. Leksem strukturunda daha çox istifadə olunur. Bu səviyyə "Qiymətləndirmə" konseptinin qavranılmasının və şüurdakı mənzərəsinin primitiv formasıdır. Məsələn, "pis", "yaxşı", "əla" anlamları. Bildiyimiz kimi hər bir obyektin və ya hadisənin normadan aşağı əlamətləri pis, normadan yuxarı keyfiyyətləri yaxşı, ən üst səviyyəsi isə əla adlandırılır. "Pis", "yaxşı", "əla" anlamları hadisə və obyekt haqqında qavlanılan əlamətdir. Bu qavranılma prosesi fərdin və ya toplumun yanaşma tərzindən və dünyagörüşündən asılıdır. Bu anlamlar kommunikasiya prossesində informasiyanın qəbulu zamanı şüurda yaranan ilkin, yəni sadə formadır.

3. ***Situasiya Səviyyəsi***. Qiymətləndirmə anlayışı fərdin və ya toplumun situativ vəziyyəti zamanı qavranılır. Hadisələrin dərk olunması zamanı ortaya çıxan nəticədir. Məhz bu nəticə konseptin mərkəzində duran motivdir. Bu situativ səviyyənin sabit formasıdır. Lakin situasiya səviyyəsi məkan çərçivəsində dərk olunan bilikləri əks etdirdiyində bu dəyişkən formalara çevrilir. "Qiymətləndirmə" konseptinin bu səviyyəsi sadə strukturda az, mürəkkəb strukturda isə çox istifadə olunur.

**Nəticə**

"Qiymətləndirmə" konsepti milli dünyagörüşün əsas göstəricisidir. Apardığımız araşdırmalar zamanı "Qiymətləndirmə" konseptinin mahiyyətini, struktur və səviyyələrini müəyyən etməyə çalışdıq. Təbii ki, bu vahid fikir kimi deyil, daha çox araşdırma nəticəsi kimi qəbul edilməlidir. Çünki bu bölgülərin ayrı-ayrı dillərin konseptlərində müxtəlif istiqamətləri ola bilər. Unutmamalıyıq ki, konsept nə qədər dildə milli səciyyə daşıyırsa, o qədər də universaldır. Konsept mədəniyyətin mərkəzi, bədii yaradıcılığın əsası, dilin ifadəliliyi, şüurun güzgüsüdür.

Nəticədə, "Qiymətləndirmə" konsepti şüurun vahidi olaraq mental proseslərlə bağlı olub, koqnitiv dilçiliyin əsası olan konseptin qiymətləndirici sözlər toplusunu təcəssüm etdirir. Düşüncə zamanı dərk olunan anlamın ifadəliliyi və təbiəti müxtəlif istiqamətlərdə ola bilər, şüurda isə o konseptin birbaşa mənzərəsini yaradır. Müxtəlif konseptləri qiymətləndirən anlamların statusu, obrazlılığı şüurda müəyyənləşir və "Qiymətləndirmə" konseptində toplanır. Qiymətləndirmə vahidlərinin strukturu, səviyyələri məxsus olduqları dilin quruluşu və dünyagörüşü çərçivəsində əhatəli şəkildə araşdırılmasına ehtiyac duyur.

**ƏDƏBIYYAT**

Dilçilikdə yeni istiqamətlər (2019). Bakı: Elm və Təhsil.

Şükürlü, S. (2019). "Konsept" məfhumu və müxtəlif yanaşmalar. Bakı: İpək yolu №4, səh. 126-131.

Veysəllı F.Y. (2015). Koqnitiv dilçilik: əsas anlayışları və prespektivləri. Bakı: Müntərcim.

Ангелова, М.М. (2004). "Концепт" в современной лингвокультурологии // Сборник научных трудов. Выпуск 3, с. 3 - 10.

Аскольдов С.А. (1997). Концепт и слово. Русская словесность. От теории словесности к структуре текста. Антология, Москва: с.267-279

Солодилова И.А. (2013). Концепт оценка: проблемы моделирования. Москва: Вопросы когнитивной лингвистики № 4 (037), с. 25-32.

Сурина В.Н. (2010). Понятие концепта и концептосферы. Москва: "Молодой учёный" №5(16), Том II, "Издательство Молодой учёный" , с .42- 67

Степанов Ю.С. (1997). Константы. Словарь русской культуры. Москва: Опыт исследования, с. 40-43.

https://www.gramota.net/articles/issn_1993-5552_2007_3-1_103.pdf